Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 08 yanvar 2015-ci il tarixli, 146 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 09 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov2014-cü il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkilərində 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə Çaylı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Carçıyev Sərxan Nəriman oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli, 146 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə Çaylı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Carçıyev Sərxan Nəriman oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsinin 30, 31 və 32 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının olduğunu iddia edərək, bununla bağlı şikayət ərizəsinin araşdırılmasına dair həmin dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli 22/60 saylı qərarının ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma zamanı 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin 30, 31 və 32 saylı məntəqə seçki komissiyası üzvlərinin, həmin seçki məntəqəsində müşahidə aparmış müşahidəçilərin və digərlərinin izhatlarına əsasən müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Göstərilənlərdən əlavə olaraq məntəqə seçki komissiyalarının üzvləri N.M.Göyüşov, A.İ.Carçiyev, Z.M.İbrahimova, E.F.Hacıyev, V.T.Dönməzov, Z.K.Mahmudova, X.Ə.Əmrahova, M.V.Əhmədov, Z.Y.Civişov, R.S.Ələkbərov, müşahidəçilər M.Q.Mustafayev, J.A.Rüstəmova, M.M.Hüseynov, R.H.Eyvazov, Ə.M.Aslanova, T.N.Göyüşov, R.K.Carçıyev, Ş.V.Qocayev, O.T.Göşşiyev, T.M.Rüstəmov, C.Y.Civişov, G.Q.Gülməmmədov, K.M.Musayev, E.T.Qocayev, E.E.Qocayev, S.M.Vəliyeva, G.B.Murquzova, A.M.Mərdalıyev, N.Q.Süleymanova, Ə.S.Hüseynov, A.Ş.Hacıyeva, S.M.Mərdalıyeva, M.C.Cəlilov, N.İ.Bənnayev, Y.M.Əkbərov, M.H.Carçıyev, Ş.Ş.Vəliyev izahatlarında bildirmişlər ki, səsvermə günü seçki prosesində hər hansı ciddi qanun pozuntusu müşahidə etməmişlər, eyni zamanda hər bir seçici şəxsən səs vermişdir.

Araşdırma prosesində şikayətçi ilə əlaqə saxlanılmış, ona qanunla müəyyən olunmuş hüquqları izah edilmiş və şikayətində göstərdiyi hallara dair əlavə dəlillər təqdim etmək hüququ olduğu bildirilmişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və “Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə Çaylı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Carçıyev Sərxan Nəriman oğlunun 08 yanvar 2015-ci il tarixli, 146 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli 22/60 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov